*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 130-134*

https://doi.org/10.62837/2024.10.130

**GÜLXAR HÜSEYNOVA**
**ADU**
**Rəşid Behbudov 134**
**e-mail: gulkharhusseynova@mail.ru**

# ALİ MƏKTƏBLƏRDƏ ALMAN DİLİNDƏ MƏZMUN ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI

**XÜLASƏ**

Hazırda dünyada xüsusi əhəmiyyət kəsb edən xarici dillərin yüksək səviyyədə mənimsənilməsi təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən hesab olunur. Xarici dil vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə dil fakültələri tələbələri özlərinin peşə sahələri ilə bağlı olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, rəvan, axıcı, səlis nitqə malik olmalıdırlar. Bu zaman zəngin və yerində işlədilmiş leksik biliklərin mənimsənilməsi vacib şərtə çevrilir. Eynu zamanda müasir metod və yanaşmalardan istifadə dərslərin səmərəliliyinə bilavasitə təsir göstərir ki, onlardan biri də haqqında bəhs edəcəyimiz məzmun əsaslı dil tədrisidir.

Əminliklə qeyd edə bilərik ki, müasir təhsilalanlar informasiya- kommunikasiya texnologiyalarının yeniliklərindən nəinki xəbərdar olmalıdır, eyni zamanda öz gündəlik həyatında və təhsilində onlardan geniş istifadə etməlidir. Dünya təcrübəsində ali təhsil müəssisələrinin qüdrəti onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, ən son yeniliklərin tətbiqi ilə ölçülür. Son zamanlar xarici dilin tədrisi metodologiyası çox sürətlə inkişaf edir, təhsilin müasir texnologiyalara olan tələbatı artır, təhsil modelləri, təhsil prosesi iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxır. İnformasiya texnologiyasının nisbətən qısa, lakin sürətlə inkişaf edən tarixi və kompüterin köməyi ilə dilöyrənmə indi özünün fəal dövrünü yaşayır.

İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir.

**Açar sözlər: səriştə, motivasiya, dil, nitq, məzmun**

Məzmun əsaslı dil tədrisi də müasir yanaşmalar içərisində ən vacib olanlardan biri hesab edilir. Bu elə bir tədris yanaşmasıdır ki, bu zaman dilöyrənənlər dili mənalı məzmunlara fokuslanaraq öyrənirlər.Onlar özlərini müxtəlif kontekstlərdə sınayırlar.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 130-134*

Bu yanaşmadan istifadə tədrisdə və təlimdə tələbənin uğurunu artmasına səbəb olur, onun kamilliyini qiymətləndirir, pedaqoji və texnoloji innovasiyaları zəruriləşdirir. Yazı, oxu, eşitmə və nitq bacarıqlarının inkişaf etdirilməsində məzmun əsaslı dil tədrisinin rolu əvəzolunmazdır. Eyni zamanda, qeyd etdiyimiz kimi, yeni metod və yanaşmaların auditoriyaya inteqrasiyası vacib şərtdir. Universitetlərdə innovativ layihələrin həyata keçirilməsi təhsilin keyfiyyətini yüksəldə, universitetlərin beynəlxalq təhsil məkanına inteqrasiyası prosesini sürətləndirə və ölkənin elm-təhsil imicini yüksəldə bilər[1,s.136]. Məzmun əsaslı dil tədrisi motivasiyanı yüksəldir. Motivasiya mexanizminin avtomatlaşması dilöyrənənlərin fəaliyyətini artırır, onların yaradıcı və tənqidi təfəkkürünü inkişaf etdirir və müstəqil işləmək bacarıqlarına yiyələndirir. Bu zaman müəllimin rolu çox böyükdür. Müəllimin əsas fəaliyyəti yönəldici xarakter daşımalı və bəzi vəziyyətlərdə isə o köməkçi rolunda çıxış etməlidir. Motivasiyaedici mühit müəllim və təhsilalanların münasibətləri, onların əməkdaşlığı üçün müəllim və tələbə qrupu arasında səmərəli ünsiyyət yaradılmasını şərtləndirir. Lakin özünün bütün üstünlükləri ilə yanaşı bu heç də həmişə asan başa gəlmir. Bu müəllimdən böyük zəhmət, səbr tələb edir. Çünki əvvəlcə müəllimin həyata keçirmək istədiyi dilöyrənənlərə bir qədər maraqsız görünə bilər, ancaq zaman keçdikcə onlar bunun dərinliklərini anlayır, bacarıqlara əsl mənada sahib olurlar. Buna görə də müəllim motivasiyanın formalaşdırılması yollarını özü üçün aydınlaşdırmalı, ondan istifadə edəcəyini müəyyən edərək fəaliyyətə başlamalıdır. Müasir dövrdə təhsildə motivasiyanın yaradılmasında da bu cür dil tədrisi mühüm rol oynayır və tədrisi daha səmərəli, maraqlı etməyə vasitəçi olur. Bütün qeyd edilən vasitələrdən istifadə müəllimdən yüksək qabiliyyətlər tələb edir və bununla yanaşı motivasiyalı dilöyrənənlərin maksimum fəallığına nail olmağa imkan yaradır. Sadalanan bu yeniliklər əksər hallarda motivasiya mənbəyinə çevrilir. Digər tərəfdən innovativ tədris metodlarına alışmış motivasiyalı tələbələrlə işləmək müəllim üçün daha asan olur, çünki bu zaman hər bir müəllimə xas olan xüsusiyyətlər, onun dəsti-xətti öz əksini tapır. Müxtəlif innovasiyaların, o cümlədən sözügedən dil təliminin meydana gəlmə səbəbi ilk növbədə tədris edilən ayrı-ayrı fənlərin məqsədlərinin dəyişikliklərə uğraması nəticəsində yaranmışdır. Motivasiyanın yaradılması zamanı bu təlim metodundan istifadə tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək, mənimsəmək bacarıqlarını formalaşdırır. Məzmun əsaslı təlim metodu ilə təşkil olunan dərslər dilöyrənənlər üçün xarici dilin praktik cəhətdən öyrədilməsinə şərait yaradır, onların kommunikativ bacarıqlarını formalaşdırır və idrak fəaliyyətini fəallaşdırır.

Bu gün nitq vərdişlərinin inkişaf etdirilməsi deyil, daha çox kommunikativ səriştəyə yiyələnmək zərurəti meydana çıxır. Bu mənada təlimdə məzmun əsaslı dil tədrisinin rolu olduqca böyükdür. Bütün bunlar tələbələrin ünsiyyət qurmağı öyrənməsi üçün təqdim edilməlidir: başqalarını dinləmək, başqaları ilə danışmaq, verilən kontekstdə mənanın müzakirəsi. Bu təlim üsulu keyfiyyətli bilik və bacarığa

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 130-134*

yiyələnməyə xidmət etməklə yanaşı, təhsilalanlarda təfəkkürün inkişafına şərait yaratmalıdır. İnteraktiv təlimdə bu cür təfəkkür- idraki proseslərin inkişafına müxtəlif qrupdaxili işlər, qruplarda müxtəlif fəaliyyət layihələrinin hazırlanması, problemlərin fərdi və qrup şəklində həlli vasitəsilə nail olunur. Bu üsul tələbələri müstəqil düşünməyə, qərarlar qəbul etməyə və tədqiqata istiqamətləndirir. Dərsin səmərəli təşkili yalnız o zaman mümkün olur ki, bütün təhsilalanlar fəaldırlar və onlar həqiqətən nəsə öyrənə bilirlər. Dərsdə passiv dilöyrənənlər olduqda interaktiv təlimin zəngin vasitələrindən olan intensiv sual- cavaba, rollu oyunlara, cütlüklərlə və ya qrup şəklində işlərə müraciət etməklə onları fəal iştiraka ruhlandırmaq lazımdır.

Yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif yanaşmalardan biri də məzmun əsaslı dil tədrisidir. Bu cür yanaşmalardan istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir[2,s.58]. İnteraktiv təlim ənənəvi təlim metodlarından tamamilə fərqli yollarla həyata keçirilir. İnteraktiv təlimdə müəllimin rolu köməkçi və bələdçi, tələbənin rolu isə fəal tədqiqatçı və iştirakçı kimi dəyişir. Məzmun əsaslı təlim metodlarının istifadəsi zamanı müəllim tələbələrin səmərəli ünsiyyəti və qarşılıqlı əlaqəsi üçün bütün lazımi şəraiti yaradır. Əsas rol dilöyrənənlərə verilir. Təlim prosesinin psixoloji mühitini müsbətə doğru dəyişmək üçün tələbələrin problemin həllinə yönəldilmiş istənilən cəhdi və ya fikri yüksək qiymətləndirilərək, ciddi və hörmətlə qarşılanır. İnteraktiv təlimdən istifadə zamanı dilöyrənənlərə hörmətlə yanaşmaq, onlara etibar etmək, onların cavablarını qiymətləndirmək həm özünə inam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır [3, s.45].

Məzmun əsaslı dil tədrisi alman dilini dil daşıyıcıları tərəfindən istifadə edilən şəkildə dili mənimsəməyə imkan verir ki, nəticədə, xarici dili öyrənən tələbələr auditoriya mühitini real dünya mühitinə asanlıqla və uğurla inteqrasiya edə bilirlər. Bu cür həqiqi kommunikasiya tələbələrə kommunikativ səriştə əldə etməyə köməklik göstərir. Tələbələrin kommunikativ bacarıqları onları mənalı, həyata keçirilə bilən, bədii əsərləri oxuma prosesinə cəlb etməklə inkişaf etdirilməlidir. Bədii əsərlərlə tanışlıq tələbələrdə məmnunluq, razılıq, əminlik hissi yaradır, niyyətlərinin kommunikativ həyata keçirilməsi üçün öyrənilən xarici dildən düzgün və adekvat şəkildə istifadə etmək bacarıq və arzusunun inkişaf etdirilməsini əsas kimi irəli sürür. Bu zaman söz ehtiyatının genişləndirilməsi üçün real şərait yaranır. Burada üstünlük anlama, danışıq, fikir və ideya mübadiləsinə verildiyi halda qrammatik, struktur və leksik vahidlər bu məqsədə nail olmaq üçün öyrənilir. Kommunikativ kompetensiyanın inkişafını nəzərdə tutan amillərdən biri də qeyd etdiyimiz kimi, məhz məzmun əsaslı dil tədrisidir.

Məlum oldıuğu kimi, məzmun əsaslı dil tədrisində bacarıqların mənumsənməsi əhəmiyyətli rola malikdir. Xarici dilin, o cümlədən də ixtisas dilinin tədrisi prosesində, həm də şifahi nitqin öyrədilməsi zamanı tələbələrdə maraq və motivasiyanın yaradılmasında bir vasitə ola bilər. Belə ki, bu və ya digər bədii

mətnlərdə olan informasiyanın müzakirə edilməsi danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün mühüm stimul yarada bilər. Bədii əsərlər fonunda müzakirə xarakterli çalışma və tapşırıqların sayı və keyfiyyəti tədrisin mərhələlərinə uyğun müəyyən edilməlidir.

Beləliklə, müxtəlif kommunikativ tapşırıqları yerinə yetirmək üçün dilöyrənənlər kommunikativ fəaliyyət növlərinə cəlb edilməli və kommunikativ strategiyalardan istifadə etməlidirlər. Bu zaman istifadə edilən tapşırıq və çalışmalardan danışarkən, onların hansı fəaliyyət növlərinə cəlb edilməsinin məqsədəuyğun olduğunu müəyyənləşdirməklə səmərəli nəticələrin əldə edilməsini təmin etmək mümkündür.

## Ədəbiyyat

1. Шубин Э.П. Языковая коммуникация и обучение иностранным языкам. М.: Просвещение, 2002, 232 с.
2. Щерба Л. В. О трояком аспекте языковых явлений .-Известия АН СССР, 1931,№ 1.
3. Anderson J. Kognitive Psychologie. Eine Einführung. Heidelberg: Francke, 1989, 118 s.

**Gulkhar Huseynova**

## The methodology of using content based language teaching in German language at high schools

## Summary

Inter-language actually helps second language learners test hypotheses about how language works and develop their own set of rules for using language.

However, there is a difference between written and spoken language. Written language is lexically richer than spoken language and it can, therefore, provide more learning opportunities than a spoken context. Consequently, a student who is an eager reader encounters more words than a student who reads less. In addition, regular reading is likely to lead to more efficient access of word meanings. A student who reads also outside school has many opportunities to acquire and improve vocabulary knowledge through inference from context. World knowledge comes from experience and from previously read texts. Skilful comprehenders use discourse knowledge to connect text elements in a consistent fashion and to connect the content to the messages of the writer. Discourse knowledge includes for instance, the structure of different genres, the main messages the author intends to convey, and the topic structure. Linguistic knowledge includes oral language capacities – production and comprehension – and the ability to reflect one’s knowledge of language. Skilful reading requires knowledge of all linguistic levels – phonology, morphology, syntax, and higher level discourse structures. In addition,

comprehension often involves integrating non-print information. Their goals are gaining knowledge, enjoying literature, locating specific information, and learning from text. Motivation consists of multiple aspects. The students with strong sense of competence are likely to engage. In addition, when children are inherently motivated to read, value reading highly, and are mastery-goal oriented, they are more likely to engage in reading. These strategies can reflect conscious awareness or become automatic with practice.

**Key words: competence, motivation, language, speech, content**

**Гусейнова Гюлхар**

**МЕТОДОЛОГИЯ УПОТРЕБЛЕНИЯ СОДЕРЖАНИЕ В НЕМЕЦКОМ ЯЗЫКЕ НА ВЫСШИХ ВУЗАХ**

**РЕЗЮМЕ**

Для того, чтобы сделать процесс обучения речевой коммуникации на языке специальности более эффективным, преподаватель должен содействовать созданию обстановки, когда и обучающий, и обучаемые чувствуют себя достаточно комфортно, в том или ином академическом контексте, понимают цель речевого общения, и осведомлены о способах достижения этой цели с помощью использования ранее усвоенных лексических единиц, грамматических структур, интонационных моделей и речевых образцов. Знание потребностей студентов и целей, в которых они изучают тот или иной иностранный язык, позволяет специалистам в области преподавания иностранных языков, а также практикующим учителям языков разрабатывать наиболее эффективные методы их достижения. Современная методика преподавания иностранных языков, основанная на коммуникативной модели обучения языку, предполагает обучение иноязычноречевой компетенции в определенном коммуникативном контексте путем сочетания основных компонентов языковой системы и при условии обеспечения коммуникативного контекста с помощью ситуаций и тем, и реализации и усвоения лингвистических единиц в функциональных целях. Совершенно естественно, что при выборе наиболее целесообразного метода или методов обучения коммуникации на иностранном языке предпочтение должно быть отдано коммуникативному подходу к обучению языкам.

**Ключевые слова: компетенция, мотивация, язык, речь, содержание**

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**